AZƏRBAYCAN RESPUBLİKASI
ELM VƏ TƏHSİL NAZİRLİYİ

Təsdiq edirəm ________________________
"Maliyyə və audit" kafedrasının müdiri
**i.e.d., prof.Əvəz Ələkbərov**

*11 sentyabr 2025-ci il*

# ALTERNATİV INVESTİSİYALAR
fənni üzrə işçi tədris proqramı
**(Sillabus)**

## I.Fənn haqqinda məlumat

| | |
|---|---|
| Fənnin kodu: | 00139 |
| Fənnin növü: | Seçmə |
| Tədris ili: | 2025/2026 |
| Fənnin tədris semestri: | Payız |
| Fakultə | Maliyyə və mühasibat |
| Qrup | İİE-24 |
| Kafedra | Maliyyə və audit |
| Tədris yükü | 30/30 |
| Kredit sayi | 6 |

## II.Müəllim haqqında məlumat

| | |
|---|---|
| Fənni tədris edən müəllim: | i.e.n.,dos.T.T.Qurbanova |
| E-mail ünvani | tunzala_gurbanova@unec.edu.az |
| İş telefonu: | 0(12)492 58 31 |
| Tələbələr üçün qəbul vaxtlari | IV-V günlər |

## III. Fənnin təsviri:

"Alternativ investisiyalar" fənni, ənənəvi investisiya alətləri olan səhmlər və istiqrazlar xaricində qalan investisiya formalarını öyrənir. Bu fənn çərçivəsində tələbələr daşınmaz əmlak, əmtəələr, hedge fondlar, özəl kapital, risk kapitalı, infrastruktur layihələri və sənət əsərləri kimi investisiya obyektləri haqqında bilik əldə edirlər. Alternativ investisiyalar, müxtəlif iqtisadi şərtlərə uyğunlaşa bilən və portfel diversifikasiyasını artıran alətlərdir. Fənn, tələbələrə bu investisiyaların xarakteristikalarını, riskləri, gəlirlilik imkanlarını və bazar fəaliyyətlərini dərinliklə araşdırma imkanı verir.

## IV. Fənnin məqsədi və vəzifələri:

Fənnin tədrisinin **məqsədi** və vəzifələri tələbələrin ənənəvi maliyyə alətlərindən fərqlənən investisiya növləri haqqında bilik və bacarıqlarını inkişaf etdirmək və onları bu bazarlarda effektiv qərarlar vermək üçün hazırlamaqdır.

Fənnin tədrisi qarşısında duran **vəzifələr** aşağıdakılardır:

1. **Alternativ investisiya alətlərinin öyrənilməsi**: Tələbələrin daşınmaz əmlak, hedge fondlar, private equity, əmtəələr, kriptovalyutalar, incəsənət əşyaları və digər alternativ aktivlər üzrə dərin biliklər əldə etmələrini təmin etmək.
2. **Qiymətləndirmə metodları ilə tanışlıq**: Alternativ aktivlərin qiymətləndirilməsi üçün tələb olunan spesifik metodların öyrənilməsi və tətbiqi.
3. **Likvidlik və çıxış strategiyalarını inkişaf etdirmək**: Az likvid olan alternativ investisiya alətlərinin idarə olunması və çıxış yolları haqqında biliklər vermək.
4. **Diversifikasiya və portfelin idarə edilməsi**: Alternativ aktivlərin investisiya portfelində rolunu anlamaq, portfeli diversifikasiya etməklə riski azaltmaq strategiyalarını tədris etmək.
5. **Risk və gəlir arasındakı balansın təhlili**: Tələbələrin müxtəlif alternativ investisiya növlərinin risk-gəlir profilini qiymətləndirərək, uyğun investisiya qərarları qəbul etməyi bacarmalarını təmin etmək.
6. **Hüquqi və etik məsələlərə diqqət yetirmək**: Alternativ investisiyalar üzrə beynəlxalq və yerli hüquqi və etik qaydaları başa salmaq və tələbələri bu çərçivələr daxilində fəaliyyət göstərməyə hazırlamaq.

## V. Öyrənmənin nəticələri:

Kursun tədrisi başa çatandan və bütün mövzular mənimsənildikdən sonra tələbələr:

**Bilməlidirlər:**

- ✓ Alternativ investisiyaların anlayışı:Ənənəvi investisiyalardan (səhmlər, istiqrazlar və s.) fərqli olaraq alternativ investisiyalar nədir, hansı növlərə ayrılır;
- ✓ Risk və gəlir profili:Alternativ investisiyaların ənənəvi aktivlərdən daha yüksək risk daşıdığı, lakin yüksək gəlir potensialına malik olduğu anlaşılmalıdır;
- ✓ Diversifikasiya və risk idarəetmə strategiyalarının önəmi;
- ✓ Qiymətləndirmə üsulları:Ənənəvi qiymətləndirmə üsullarından fərqli olaraq alternativ investisiyalar üçün xüsusi metodların istifadəsi;

- ✓ Alternativ aktivlərin qiymətini müəyyənləşdirmək üçün bazar və subyektiv amillərin nəzərə alınması;
- ✓ Hüquqi və tənzimləyici çərçivə: Alternativ investisiyaların hüquqi tərəfləri, vergi rejimləri və yerli, beynəlxalq qaydalar;
- ✓ Likvidlik və çıxış strategiyaları:Alternativ investisiyaların likvidliyi adətən aşağı olur. Tələbə likvidlik problemi ilə necə başa çıxılacağını və uyğun çıxış strategiyalarını bilməlidir;
- ✓ Makroiqtisadi və bazar meylləri:Tələbə iqtisadi şərtlərin, inflyasiyanın və maliyyə bazarlarının alternativ investisiyalara təsirini qiymətləndirməyi bilməlidir.

**Bacarmalıdırlar:**

- ✓ Alternativ investisiyaları təhlil etmək:
- ✓ Diversifikasiya strategiyaları hazırlamaq:
- ✓ Risk idarəetməsi aparmaq:
- ✓ Qiymətləndirmə metodlarını tətbiq etmək:
- ✓ Likvidlik problemlərini həll etmək:
- ✓ Makroiqtisadi şərtləri və bazar tendensiyalarını analiz etmək:
- ✓ Tənzimləmə və hüquqi məsələləri idarə etmək:

**VI. Fənnin mühazirə mövzuları**

*Fənn 14 mühazirə mövzusundan ibarətdir.*

1. Alternativ investisiyalar fənninə giriş və onların nəzəri əsasları
2. Hedc fondları və onların strategiyaları
3. Xüsusi kapital investisiyaları və vençur kapitalı
4. Daşınmaz əmlak investisiyaları
5. Əmtəə investisiyaları
6. İnfrastruktur investisiyaları
7. Törəmə maliyyə alətləri və onların xüsusiyyətləri
8. Kriptovalyutalar və rəqəmsal aktivlər
9. Sosial və davamlı investisiyalar
10. Sənət əsərləri və kolleksiya əşyalarına investisiyalar
11. Ənənəvi və alternativ investisiya portfellərinin oxşar və fərqli cəhətləri
12. Alternativ investisiya bazarında maliyyə riskləri
13. Risklərin idarə edilməsi və hecinq strategiyaları
14. Alternativ investisiyalarda vergi planlaması və tənzimləmə

**VII. Prerekvizitlər**

yoxdur

**VIII. Fənnin tədris metodologiyası**

Bu fənnin tədrisi prosesində mühazirələrin oxunması, interaktiv müzakirələrin aparılması, komanda şəklində layihələrin icrası, kiçik qruplarda iş, işgüzar oyunlar, xüsusi nümunələrin (keys-stadilər) öyrənilməsi və təhlili, esse yaxud sərbəst işlərin yazılması və test tapşırıqların yerinə yetirilməsi kimi geniş çeşiddə tədris və təlim üsullarından istifadə edilir.

Bundan əlavə tədris və təlim prosesində xarici və yerli ədəbiyyatdan, habelə beynəlxalq və yerli mətbuatdan (internet resurslarından) göturulmüş məqalələrin, real nümunələrin və xüsusi keyslərin təhlilinə, müzkirasinə və məntiqi nəticələr çıxarılmasına xüsusi diqqət ayrılacaq. Verilən biliklərin tətbiqi bacarıqlarının formalasdırılması üçün tələbələr mövzuya uyğun seçilmiş tapşırıqları həll edecəklər.

Hər bir yeni mövzunun tədrisi öncəsi tələbələr müəyyən olunmuş mətnləri və onlara təqdim edilmiş (tapşırılmış) qiraət materialları ilə tanış olmalıdırlar.

**IX. Əsas dərslik və ədəbiyyat**


1. Ələkbərov Ə.Ə., Qurbanova T.T., Məmmədova G.Q., Əlicanova Ş.M. ”Maliyyə risklərinin idarə edilməsi” dərslik , Bakı- İqtisad Universiteti nəşriyyarı 2023. Səh.496
2. "Alternatif Yatırımlar ve Hedge Fonlar" – Erdal Toprak,2010,S: 220
3. "Gayrimenkul Yatırımları ve Değerleme Teknikleri" – Ahmet Turan Alkan, 2014 ,Səh:: 300
4. "Finansal Yatırımlar ve Portföy Yönetimi" – Murat Ulucan,2017,Səh:: 480
5. "Alternatif Yatırım Araçları: Kripto Paralar ve Blockchain Teknolojisi" – Hakan Kırımlı,2021, Səh:: 250
6. Özel Sermaye Fonları (Private Equity)" – Selim Koç,2015,Səh:: 270
7. "Альтернативные инвестиции: Оценка и управление рисками" – Франк Фабиан, 2016, Səh:: 320
8. "Альтернативные инвестиции: Хедж-фонды, частные инвестиции и недвижимость" – Джошуа Пирс и Эндрю Лоу, 2014,Səh:: 400
9. "Частный капитал (Private Equity): Теория и практика" – Эндрю Метрик и Айала Амит, 2010, Səh:: 500
10. "Руководство по управлению альтернативными инвестициями" – Марк Ансон,2007,Səh:: 480
11. "Альтернативные активы: Хедж-фонды, товары, частный капитал и другие" – Филипп Бест, 2013,Səh:: 368
12. "Инвестиции в недвижимость: Практическое руководство" – Алексей Новиков,2018,Səh:: 260
13. "Инвестиции в искусство" – Марина Фролова,2015,Səh:: 200
14. "Alternatives: Exploring Non-Traditional Investments" – Donald R. Chambers, 2015,Səh:: 256
15. "Private Equity: History, Governance, and Operations" – Harry Cendrowski, James P. Martin, Louis W. Petro, Adam A. Wadecki, 2012,Səh:: 450
16. "Hedge Funds: An Analytic Perspective" – Andrew W. Lo,2010,Səh:: 400
17. "Real Estate Finance and Investments" – William Brueggeman, Jeffrey Fisher,2010 (14-cü nəşr),Səh:: 800
18. "Commodities and Commodity Derivatives: Modeling and Pricing for Agriculturals, Metals, and Energy" – Hélyette Geman,2005,Səh:: 416
19. "Handbook of Alternative Assets" – Mark J. P. Anson,2006,Səh:: 720
20. "The Handbook of Infrastructure Investing" – Michael D. Underhill,2010,Səh:: 300
21. "Investing in Art: A Guide for New Collectors" – Louisa Buck, Judith Greer,2006,Səh:: 176

22."Cryptoassets: The Innovative Investor's Guide to Bitcoin and Beyond" – Chris Burniske, Jack Tatar,2017,Səh:: 368

**İnternet Resurslar:**

1. https://www.tspb.org.tr
2. https://www.kriptoakademi.com
3. https://www.investfunds.ru
4. https://www.cbonds.ru
5. https://www.finam.ru
6. https://caia.org
7. https://www.preqin.com
8. https://www.investopedia.com

Hər bir mövzu üzrə müəllimin mühazirə mətnləri və təqdimatları elektron-kabinetə yerləşdirilir. Hər bir mövzu ilə bağlı müəllim əlavə olaraq xüsusi ədəbiyyat təklif edə bilər.

**X. Fənnin mühazirə mətnləri**

Fənnin bütün mövzuları üzrə mühazirə mətnləri, müzakirə sualları və tapşırıqları, habelə müxtəlif növ məşğələ materialları elektron formatda Universitetin saytında "Virtual universitet" bölməsində (www.vu.aseu.az) yerləşdirilir.

**XI. Mövzuların məzmunu və tədris-tematik bölgüsü**

| Həftə | Mövzuların adı | Mövzunun əsas məzmunu | Ədəbiyyat |
|---|---|---|---|
| 1 | Alternativ investisiyalar fənninə giriş və onların nəzəri əsasları | İnvestisiya anlayışı və onun növlərinin təsnifatı<br>İnvestisiya portfeli, onun formalaşması anlayışı və idarə edilməsi<br>Alternativ investisiya fənninə giriş<br>Alternativ investisiyaların tarixi və inkişafı<br>Alternativ investisiyaların ənənəvi investisiya növlərindən fərqi | "Finansal Yatırımlar ve Portföy Yönetimi" – Murat Ulucan,2017,Səh:: 480<br><br>"Alternatif Yatırımlar ve Hedge Fonlar" – Erdal Toprak,2010,S: 220 |
| 2 | Hedc fondları və onların strategiyaları | Hedc fondların anlayışı və onun yaranması tarixi<br>Hedc fondlarının yaradılmasında investorların Maraqları<br>Hedc fondlarının strukturu və məqsədi | "Alternatif Yatırımlar ve Hedge Fonlar" – Erdal Toprak,2010,S: 220 |

| | | | |
|---|---|---|---|
| | | Hedc fondlarının istifadə etdiyi strategiyalar<br>İnvestisiyaya başlamazdan əvvəl nələri düşünmək lazımdır<br>Hedc fondların riskləri və onların idarə olunması<br>Hedc fondların portfel diversifikasiyasında rolu | |
| **3** | Xüsusi kapital investisiyaları və vençur kapitalı | Xüsusi kapital investisiyaları anlayışı, xüsusiyyətləri<br>Xüsusi kapital investisiyalarının növləri və onların fərqləri<br>Vençur institutlarının təşkilatı strukturu<br>Vençur fondlarının yaradılması əsasları<br>Vençur fondunun fəaliyyəti və mərhələləri<br>Vençur şirkətin idarəedilməsi və dəyərinin yüksəldilməsi<br>Vençur maliyyələşdirilməsi zamanı yaranan risklər | "Private Equity: History, Governance, and Operations" – Harry Cendrowski, James P. Martin, Louis |
| **4** | Daşınmaz əmlak investisiyaları | Daşınmaz əmlak növləri və bazarları<br>Daşınmaz əmlak investisiya strategiyaları<br>REIT-lər (Real Estate Investment Trusts) və onların fəaliyyəti<br>Likvidlik və daşınmaz əmlak bazarının riski | "Инвестиции в недвижимость: Практическое руководство" – Алексей Новиков,2018,Səh:: 260 |
| **5** | Əmtəə investisiyaları | Əmtəə bazarlarının tərkibi və əsas məhsullar<br>Neft, qaz, metallar, kənd təsərrüfatı məhsullarına investisiyalar<br>Əmtəələrin qiymət dəyişkənliyi və riskləri<br>Əmtəə fyuçersləri və törəmə alətlərin istifadəsi | "Commodities and Commodity Derivatives: Modeling and Pricing for Agriculturals, Metals, and Energy" – Hélyette Geman,2005,Səh:: 416 |

| | | | |
|---|---|---|---|
| **6** | İnfrastruktur investisiyaları | İnfrastruktur İnvestisiyalarının Əhəmiyyəti və Əsas Növləri<br>İnfrastruktur İnvestisiyalarının Maliyyələşdirilməsi<br>İnfrastruktur İnvestisiyalarının Strateji Planlaşdırılması və İdarə Edilməsi<br>İnfrastruktur İnvestisiyalarının Sosial və Ekoloji Təsirləri<br>İnfrastruktur İnvestisiyalarının Monitorinqi və Qiymətləndirilməsi | "Руководство по управлению альтернативными инвестициями" – Марк Ансон,2007,Səh:: 480 |
| **7** | Törəmə maliyyə alətləri və onların xüsusiyyətləri | Törəmə maliyyə alətlərinin növləri (opsionlar, fyuçerslər, svoplar və forvardlar)<br>Törəmə alətlərin riskdən qorunma və spekulyasiya məqsədilə istifadəsi<br>Leverage istifadəsi və törəmə alətlərdə risk idarəetməsi<br>Törəmə bazarlarının strukturu və likvidliyi | "Commodities and Commodity Derivatives: Modeling and Pricing for Agriculturals, Metals, and Energy" – Hélyette Geman,2005,Səh:: 416 |
| **8** | Kriptovalyutalar və rəqəmsal aktivlər | Kriptovalyutaların əsas anlayışları (Bitcoin, Ethereum və s.)<br>Kripto-bazarlar və blokçeyn texnologiyası<br>ICO (Initial Coin Offering) və DeFi (Decentralized Finance) investisiya modelləri<br>Kriptovalyutaların riskləri və gələcək potensialı | "Alternatif Yatırım Araçları: Kripto Paralar ve Blockchain Teknolojisi" – Hakan Kırımlı,2021, Səh:: 250 |
| **9** | Sosial və davamlı investisiyalar | ESG (Environmental, Social, and Governance) investisiya meyarları | "Руководство по управлению альтернативными инвестициями" – Марк |

| | | | |
|---|---|---|---|
| | | Davamlılıq və sosial məsuliyyət yönümlü alternativ investisiyalar<br>Impact investing və sosial təsir investisiyalarının iqtisadiyyata töhfəsi<br>ESG və davamlı investisiyaların gələcək perspektivləri | Ансон,2007,Səh:: 480 |
| **10** | Sənət əsərləri və kolleksiya əşyalarına investisiyalar | Sənət və antik əşyalar bazarının xüsusiyyətləri<br>Sənət əsərlərinin dəyəri və qiymətləndirilməsi<br>Kolleksiya əşyalarının investisiya potensialı<br>Sənət bazarının riski və spekulyasiyası | "Инвестиции в искусство" – Марина Фролова,2015,Səh:: 200 |
| **11** | Ənənəvi və alternativ investisiya portfellərinin oxşar və fərqli cəhətləri | Alternativ və ənənəvi investisiya alətlərinin performans müqayisəsi<br>Portfelin diversifikasiyasında optimal strategiyalar<br>Bazar dəyişkənliyi və makroiqtisadi şəraitin təsiri<br>Portfelin idarə edilməsi və optimallaşdırılması | "Руководство по управлению альтернативными инвестициями" – Марк Ансон,2007,Səh:: 480 |
| **12** | Alternativ investisiya bazarında maliyyə riskləri | Maliyyə riskləri anlayışı<br>Maliyyə risklərinin növləri<br>Alternativ investisiya bazarında maliyyə risklərinin müəyyən edilməsi | Ələkbərov Ə.Ə., Qurbanova T.T., Məmmədova G.Q., Əlicanova Ş.M. ”Maliyyə risklərinin idarə edilməsi” dərslik , Bakı-İqtisad Universiteti nəşriyyarı 2023. Səh.496 |
| **13** | Risklərin idarə edilməsi və hecinq strategiyaları | Alternativ investisiyalarda risklərin təhlili<br>Riskdən qorunma (hedc) mexanizmləri və strategiyaları<br>Alternativ investisiyalarda likvidlik və bazar riskləri | "Альтернативные инвестиции: Оценка и управление рисками" – Франк Фабиан, 2016, Səh:: 320 |

| | | | |
|---|---|---|---|
| | | Makroiqtisadi faktorların investisiya portfelinə təsiri | |
| **14** | Alternativ investisiyalarda vergi planlaması və tənzimləmə | Alternativ investisiyaların vergiyə cəlb olunması qaydaları<br>Hökumət tənzimləmələri və hüquqi çərçivələr<br>Alternativ aktivlər üzrə vergi planlaması<br>Beynəlxalq investisiyalar və tənzimləmə fərqləri | "Руководство по управлению альтернативными инвестициями" – Марк Ансон,2007,Səh:: 480 |

## XII. Seminar-məşğələlər: hazırlıq və qiymətləndirmə

Seminar-məşğələ dərslərində tələbə öz fikirlərini məntiqi ardıcıllıqla ifadə və izah etməyi, habelə arqumentlərlə əsaslandırmağı bacarmalıdır. Buna nail olmaq üçün tələbə:

1) Seminar məşğələsinin hər bir mövzusu üzrə müzakirəyə çıxarılan suallarla diqqətlə tanış olmalı;
2) Müvafiq mühazirə materiallarını diqqətlə öyrənməli;
3) Mövzu üzrə tövsiyyə edilən ədəbiyyatı oxumalı və öyrənməli;
4) Seminar məşğələsində müzakirəyə cıxarilan hər bir sual üzrə qısa çıxış hazırlamalı;
5) Mövzu üzrə verilən praktik tapşırıqları və məsələləri yerinə yetirməklə praktik bacarıqlara yiyələnməlidir.

Tələbənin məşğələdəki hər bir cavabı 10 ballıq sistem üzrə 0-10 bal arasında (maksimum 10 bal olmaqla) qiymətləndirilir və həmin ballar EDUMAN sistemində aşağıdakı nisbətlərdə nəzərə alınır:

- 10 bal:5 bal
- 9 bal : 4,5 bal
- 8 bal :4baI
- 7 bal:3,5bal
- 6 bal:3 bal
- 5 bal :2,5 bal
- 4bal:2bal
- 3 bal : 1,5 bal
- 2bal: I bal
- I bal:0,5 bal

Seminar balları əsasında formalaşan yekun aktivlik balı aşağıdakı düsturla müəyyən edilir.

B = (((bI +b2+b3+.".+bn)/s)*m)/l0

Burada, B - yekun aktivlik bah;

b - seminar dərslərində alınan müxtəlif ballar

s - semestr ərzində verilən cavabların sayı

m - aktivlik bahna aynlan maksimal bal;
l0 - bir seminar dərsində toplanan maksimal baldır.

Tələbə semestr ərzində cəmi 4 dəfə, hər dəfə isə 10 bal aldığı halda maksimal aktivlik balını - 20 bah toplamış olur. Bu halda nəticə sistemdə ((( 1 0+ 1 0+ 1 0+ 1 0)l 4)* 20)l 70 : 20 olaraq hesaba alınır. Maksimal bal toplaya bilməyənlər isə istədiyi halda 5-ci, 6-ct,7-ci ve s. Cavab verməklə aktivlik balı toplaya bilərlər. Bu zaman müəllim ilkin olaraq həmin qrupda 4 dəfə cavab verməyənlərdən başlamaqla növbəlilik prinsipi əsasında tələbəyə cavab verməsi imkanı yaradır.

**XIII. Fənn üzrə kurs işi**

Fənn üzrə kurs işi nəzərdə tutulmayıb.

**XIV. Fənn üzrə ara və aralıq qiymətləndirmə**

Ara qiymətləndirmə hər bir fənn üzrə semestr ərzində maksimal 30 bal formalaşdıran və ilk 7 tədris həftəsi ərzində keçilmiş mövzular üzrə (7-ci həftə də daxil olmaqla) aparılan qiymətləndirmədir. Ara qiymətləndirmə mərkəzləşdirilmiş qaydada yazılı üsulda 8-ci və 9-cu tədris həftələri ərzində keçirilir

Yazılı üsulunda keçirilən ara qiymətləndirmə zamanı tələbəyə 3 sual, aralıq qiymətləndirmə zamanı isə təhsilalanlara 5 sual təqdim olunur.

Fənn üzrə tələbələrin yekun biliyi 100 ballıq sistem üzrə qiymətləndirilir. Balların maksimum miqdarı – 100 baldır.

Yekun imtahandan sonra tələbənin fənn üzrə topladığı bütün ballar toplanır və yekun qiymət (bal) hesablanır . Fənn üzrə tələbənin əldə edə biləcəyi yekun balın strukturu aşağıdakı cədvəldə təqdim edilib:

| İstiqamət | Ballar | Faiz |
|---|---|---|
| Aralıq qiymətləndirmə | 50 | 50% |
| Ara qiymətləndirmə | 30 | 30% |
| Auditoriya qiymətləndirməsi | 20 | 20% |
| **Cəmi:** | 100 | 100% |

Fənn üzrə semestr ərzində (imtahana qədər və imtahanda) tələbənin topladığı balın yekun miqdarına görə onun yekun biliyi aşağıdakı kimi qiymətləndirilir:

51 baldan aşağı olduqda - “qeyri-kafi” - F
51-60 bal - “qənaətbəxş” - E
61-70 bal - “kafi” - D
71-80 bal - “yaxşı” - C
81-90 bal - “çox yaxşı” - B
91-100 bal - “əla” - A

Tələbənin topladığı yekun bal 51 baldan aşağı olduqda (yəni onun biliyi “qeyri-kafi” qiymətləndirildikdə) tələbə bu fəndən krediti qazanmır və onun fənn üzrə akademik borcu qalır.

**Tərtib etdi:** **i.e.n.,T.T.Qurbanova**